# ŞUŞANIN YAŞAYIŞ EVLƏRİ ŞƏHƏR EKOLOGİYASININ TƏRKİB HİSSƏSİ KİMİ

**Zərnaz İmanzadə**

*AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, Bakı*
*zarnaz.imanzade@yahoo.com*

Bu gün dövlətimiz işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" planını uğurla, davamlı şəkildə həyata keçirir. Bu planın əsas tərkib hissələrindən biri də Şuşa şəhərinə qayıdışdır. Şuşanın yenidən qurulması, onun memarlıq abidələrinin bərpası Böyük Qayıdışın simvolu kimi ümumxalq əhəmiyyət kəsb edir.

Əsası 1754-cü ildə Pənahəli xan tərəfindən qoyulmuş, XIX əsrdə hətta Bakı və İrəvanı qabaqlayan Şuşa Qafqazın ən böyük şəhərlərindən biri idi. O dövr üçün bu şəhər özünün kəskin relyefdə qərarlaşmış daş evləri, fərş döşənmiş küçələri, ağac bəzəkli balkonları, əlvan naxışlı şəbəkəli pəncərələri, rəngarəng xalçaları, ipəkləri, cins atları ilə məşhur idi. Lakin baş vermiş siyasi hadisələr onun sonrakı həyatına ciddi təsir göstərdi. Uzun müddət burada nəinki heç bir tikinti-abadlıq işləri görülmədi, əksinə, tarixi-memarlıq abidələrinin bəziləri vəhşicəsinə dağıdıldı.

Şuşa şəhərinin yenidən dirçəldilməsi yalnız 1969-cu ildə Ümümmilli Lider H.Əliyevin Azərbaycana rəhbər təyin edilməsindən sonra mümkün oldu. Respublikanın yeni rəhbəri ilk növbədə şəhərin tarixi-memarlıq abidələrinin dağıdılmasının qarşısını almaq üçün tədbirlər gördü. 1977-ci ilin avqust ayında Azərbaycan SSR Nazirlər Soveti onun təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli işlər görüldü. Lakin Şuşada başlanmış bu dinc quruculuq işləri uzun çəkmədi. 1992-ci il may ayının 8-də Şuşa şəhəri ermənilər tərəfindən işğal olundu. Şəhərin oğurluqlar və yanğınlarla müşayət olunan alınması Azərbaycan əhalisini şəhəri tərk etmək məcburiyyəti qarşısında qoydu. İşğal altında qalmış, özünəməxsus şəhərsalma strukturuna malik olan şəhər 30 ilə yaxın müddətdə amansız şəkildə dağıdıldı.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuz 2020-ci il noyabrın 8-də erməni hərbi qüvvələri tərəfindən işğal olunmuş Şuşa şəhərini işğaldan azad etdi. Bu gün tariximizə ən şanlı bir gün kimi yazıldı.

Dövlət başçısının 7 may 2021-ci il tarixli Sərəncamına əsasən, Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş, bütün dünyanın diqqət mərkəzində olan Şuşa şəhərinin Ümummilli Lider H.Əliyevin təşəbbüsü ilə yaradılmış Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu Azərbaycanın dünya əhəmiyyətli abidələrindən biridir. Ölkəmizin ekologiyasına böyük ziyanlar vurmuş, Azərbaycan xalqının milli mədəniyyətinin izlərini silməyə can atan erməni işğalçıları, bü tarixi şəhər-qoruğun bütün abidələri kimi, yaşayış evlərini də xüsusi

qəddarlıqla dağıdıb tökmüşlər. Yəqin ki, Şuşada da, başqa işğal altında qalmış şəhərlərimizdə olduğu kimi, bəzi binalar indiki vəziyyətində - dağılıb-tökülmüş şəkildə konservasiya edilərək işğalçıların barbarlığını dünya ictimaiyyətinə və bizim gələcək nəsillərimizə nümayiş etdirən eksponatlar kimi saxlanılacaqlar. Lakin qalibiyyətimizdən dərhal sonra dağıdılmış şəhərlərin və kəndlərin yenidən qurulması və əksər memarlıq abidələrinin bərpası istiqamətində ardıcıl işlərə başlanmışdır. Bu abidələr sırasında xalqımızın milli sərvəti, şəhərin planlaşma və tikinti mühitinə tam orqanik şəkildə daxil olan Şuşanın yaşayış evləri xüsusi bir yer tutur. Əlbəttə ki, bu halda təkcə bərpa metodikasının nəzəri müddəaları deyil, həmçinin müharibə yolu ilə öz torpaqlarını düşmən tapdağından xilas etmiş Azərbaycan xalqının milli hissləri də həlledici rol oynayır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası ərazisində dövlət mühavizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsü siyahısına əsasən, Şuşa şəhərinin özündə yerləşən 41 ölkə əhəmiyyətli abidədən 25-i (19-u qoruq zonasında, 6-sı qoruqdan kənarda), 149 yerli əhəmiyyətli abidədən isə 112-si (89-u qoruq zonasında, 23-ü isə qoruqdan kənarda) yaşayış evləri və saraylardır. Öz görkəmli incəsənət və mədəniyyət xadimləri ilə məşhur olan Şuşada 137 tarixi yaşayış binasının əksəriyyəti məhz yaradıcı insanlara məxsus evlərdir. Bu evlərdən bir çoxu - Üzeyir Hacıbəyovun, böyük xanəndə Bülbülün, M.M.Nəvvabın yaşayış evləri, işğala qədər ev muzeyləri kimi fəaliyyət göstərirdilər. Ona görə də Şuşanın qədim yaşayış evləri həm xalq memarlığının qiymətli nümunələri kimi, həm də vaxtilə bu şəhərdə yaşayıb yaratmış Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinə memorial abidələr kimi ikiqat əhəmiyyətə malik olub, xalqımızın milli sərvəti olan digər abidələr arasında xüsusi yer tuturlar.

Qeyd etmək lazımdır ki, uzun illər Azərbaycanın müxtəlif elmi təşkilatları və M.Useynov, Ə.Salamzadə, Ə.Sadıqzadə, L.Bretanitski, Ş.Fətullayev, E.Avalov və s. kimi görkəmli alimlərimiz xalqımızın həyat tərzini, eləcə də bunlardan doğan tələbləri özündə çox aydın surətdə əks etdirən Şuşanın yaşayış evlərinin öyrənilməsi ilə məşğul olmuşlar. Bu sahədə görülən işlər bu xalq memarlığı nümunələri haqqında zəngin material toplanması ilə nəticələnmişdir.

Böyük Qayıdışla əlaqədar Şuşanın dircəlişi, orada olan abidələrimizin bərpası və onlara ilkin simalarının qaytarılmasının böyük əhəmiyyət kəsb etdiyi bu günlərdə Şuşanın yaşayış evlərinin öyrənilməsi və bərpası problemləri yenə də həm dövlətimizin, həm də memar və sənətşünasların diqqət mərkəzindədir. Bu baxımdan Şuşanın ənənəvi yaşayış evlərinin memarlıq və planlaşma həlli barədə elmi məlumatlar, onların bərpası üçün təkliflər şəhərin dirçəlişi ilə məşğul olan bərpaçı memarlar, şəhərin memarlığını araşdıran tədqiqatçı alimlər, eyni zamanda Şuşa ilə maraqlanan sıravi oxucular üçün böyük maraq kəsb edir və onların tədqiqi bu gün hər zaman olduğundan daha aktualdır.

Şuşa yaşayış evləri Azərbaycan yaşayış evlərinə xas olan bütün ənənələri özündə qoruyub saxlayaraq, müxtəlif yerli ekoloji faktorların təsiri altında texniki, konstruktiv və planlaşma fəndləri, memarlıq elementlərinin inkişafı ilə özünə məxsus bir sima əldə etmişlər. Xüsusi inkişaf şəraiti, iqlim xüsusiyyətləri və tikintidə istifadə olunan materiallar onların tikinti üsullarının xüsusiyyətlərini, plan həllində kompozisiya üsullarını, bəzək tərtibatlarının vəsait və detallarını təyin etmişdir. Yerli resurslardan böyük bacarıqla istifadə etmiş Şuşanın incə ruha malik olan ustad memarları möcüzəvi memarlıq və incəsənət nümunələri yaratmışlar.

Relyefin kəskinliyi ucbatından şəhər ərazisinin məhdudluğu Şuşada 2-3 mərtəbəli evlərin tikilməsinə gətirib çıxarmışdır. Şuşa evlərinin həyətyanı sahələrinin ölçüsü, həyətyanı bağça olmayan hallarda, adətən 300 $m^2$-dən artıq olmurdu. Yaşıllıqlar Şuşa evlərinin memarlıq-planlaşma strukturunun çox əhəmiyyətli spesifik komponenti idi. Şəhər sakinləri öz estetik tələblərinə görə həyətlərini müxtəlif gül-çiçəklərlə, yaşıllıqlarla bəzəyirdilər. Bu həm onların utilitar-məişət tələblərinə cavab verir, həm də evin mikroiqlimini yaxşılaşdırırdı. Ev təsərrüfatlarının malikanə xarakteri daşıması, evlərin bağlar əhatəsində olması səbəbindən Şuşa şəhər-bağ təsiri bağışlayırdı.

Şuşanın yaşayış evlərinin memarlıq formalarının yaranmasına və inkişafına təsir göstərmiş faktorlardan biri də yerli inşaat materialları olmuşdur. Ətraf qayalarda lazımi miqdarda olan daşlar maksimal şəkildə daşdan istifadə edilən konstruksiyaların yaranmasına gətirib çıxarmış, bu daşların konstruktiv və dekorativ xüsusiyyətləri yerli ustad memarlar tərəfindən böyük bacarıqla istifadə edilmişdir. Tikintisində əsasən sərt qaya daşından istifadə olunmuş bu evlər konstruksiyalarının aydın logikası, bədii formaların və memarlıq elementlərinin özünəməxsusluğu ilə nəzər-diqqəti cəlb edirlər.

Evlərdə mərtəbəarası örtüklər, əsasən, ağac tirlər və bunların üzərində kiçik taxta lövhələrdən qurulmuş astar döşəməsindən təşkil olunurdu. Ətrafda olan sıx meşələr buna imkan verirdi. Astar döşəmənin üzərində 8-10 sm qalınlığında torpaq qatı tökülüb döyəcləndikdən sonra əsas gil-saman döşəməsi qurulurdu. İri taxta lövhələrdən düzəldilən döşəmələr isə çox vaxt ikiqat tirlər üzərində qurulur və torpaq təbəqəsi tirlərin hündürlüyü içərisində yerləşdirilirdi. Bu cür örtüklərdə döşəmə ilə torpaq layı arasında çox vaxt hava təbəqəsi təşkil olunurdu. Şuşanın ənənəvi yaşayış evlərinin tikintisində yapışdırıcı maddə kimi əhəng və gildən istifadə edilirdi.

Yaşayış evlərinin konstruktiv və planlaşma xüsusiyyətləri həm də iqlim şəraiti əsasında formalaşırdı ki, biz onların iqlimlə qarşılıqlı əlaqəsini çox parlaq şəkildə nümayiş etdirən memarlıq kompozisiyasını nəzərdən keçirdikdə buna şahid oluruq.

Şuşanın qədim xalq yaşayış evlərinin həcm-fəza strukturu adətən bir-biri ilə üzvi şəkildə bağlı iki hissədən - bağlı və açıq, ya da yarımaçıq hissələrdən ibarətdir. Yerli iqlim şəraitinin tələblərinə uyğun olaraq eyvan və ya bir, bəzən isə iki tərəfi divar əvəzinə şəbəkə ilə örtülən otaqlar - yay yerləşgələri yaşayış binalarının ayrılmaz hissəsini təşkil edir. Binaların açıq hissələri kompozisiyanın əsas elementi olmaqla yanaşı, memarlığın landşaftla bədii əlaqəsini də yaradır. Bu evlərin əsas xüsusiyyətlərindən biri də onların ərazidə yerləşdirilməsində ən əlverişli coğrafi istiqamətin nəzərə alınmasından ibarətdir. Müəyyən səbəbə görə evin əsas fasadını ən əlverişli sayılan cənub tərəfə yönəltmək mümkün olmadıqda şərq və cənub-şərq istiqamətləri seçilirdi.

Atmosfer çöküntülərinin miqdarı ilə əlaqədar olaraq Şuşa evlərində dəmir örtülü çatılı damlardan geniş istifadə olunurdu. Vaxtilə qalın taxta lövhələrdən ibarət olan örtülər, sonralar vərəqə dəmirlərdən qurulurdu. Binanın dam örtüyünün evin perimetri boyu çıxıntısı divarları, şəbəkələri və açıq balkonları yağışdan qoruyurdu.

Sıx tikinti şəraitində həyətyanı sahələrin kiçik ölçüləri və müxtəlif konfiqurasiyaları müxtəlif həll variantlarına gətirib çıxarsa da, Şuşa yaşayış evləri ümumi kompozisiya xüsusiyyətlərinə malikdirlər. Plan həllinə görə Şuşanın yaşayış evlərinin konfiqurasiyasının 3 əsas növu vardır: düzbucaqlı, kiril əlifbasının Г və П hərfləri şəklində təşkil olunmuş evlər.

Şuşa yaşayış evlərinə xas olan plan həlli kompozisiyasının aydınlığı, yığcamlığı və az-şox oxşarlığı onların memarlıq simasının oxşarlığına gətirib çıxarmışdır.

Yalnız Azərbaycan memarlıq tarixində deyil, həm də dünya memarlıq tarixində xüsusi yer tutan, özünə məxsus siması, kompozisiya prinsipləri olan, çox təəssüf ki, işğal illərində dağıdılıb tökülərək yararsız hala salınmış, haqqında danışdığımız bu yaşayış evlərinin bu gün bərpaya böyük ehtiyacı var. Müasir bərpanın mühüm vəzifəsi Şuşanın memarlıq-bədii simasının ənənəvi tarixi bütövlüyünü qoruyub saxlamaqdan ibarətdir.